BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Sosial-siyasi elmlər seriyası 2006

# TERRORÇULUQ CİNAYƏTİNİN BEYNƏLXALQ ASPEKTDƏN ARAŞDIRILMASININ BƏZİ MÜBAHİSƏLİ MƏSƏLƏLƏRİ

**M.N.İMANLI**
***Bakı Dövlət Universiteti***

*Məqalədə göstərilir ki, beynəlxalq terrorçuluq son dövrlərin hadisəsi olmayıb, minilliklərlə ölçülən tarixə malikdir. Qədim dünyada mövcud olmuş imperiyaların tərkibinə daxil olan ərazilərdə mərkəzi hakimiyyətə, onun nümayəndələrinə qarşı terrorçuluq hərəkətləri törədilmişdir.*

*Məqalədə 1918-1920-ci illərdə və 1988-i ildən bəri Azərbaycan xalqına qarşı törətdikləri çoxsaylı terrorçuluq hərəkətləri beynəlxalq terrorçuluq mövqeyindən təhlil edilir. Respublikada terrorçuluq qurumlarının yarana bilməsi təhlükəsindən söhbət açılır.*

*Sonra məqalədə beynəlxalq terror təşkilatlarının müəyyən dövlətlər tərəfindən himayə edilməsi, bu məsələnin mübahisəli cəhətləri işıqlandırılır. Beynəlxalq terrora yalnız bütün dövlətlərin ümumi səylərinin birləşdirilməsi yolu ilə qalib gəlməyin mümkün olması vurğulanır.*

Beynəlxalq terrorçuluq heç də son dövrlərin hadisəsi deyildir, onun tarixi yüzilliklərlə, hətta minilliklərlə ölçülür. Sadəcə olaraq müasir dövrdə terrorçuluq cinayəti öz təhlükəlilik dərəcəsinə görə xeyli irəli getmiş, terrorçular öz əməllərini daha təhlükəli üsullarla və daha geniş miqyasda həyata keçirməyə başlamışlar. Tarixdən məlumdur ki, insanlıq salnaməsinə öz dəst-xətləri ilə qanlı səhifələr yazmış fatehlər işğal etdikləri dövlətin rəsmi strukturlarını darmadağın etdikdən sonra həmin ərazilərdə yaşayan insanlara qarşı kütləvi repressiv-zorakı tədbirlər həyata keçirmiş, əhalinin bir hissəsini fiziki cəhətdən məhv etmiş, digər hissəsini köləyə çevirmişlər. Qəsb edilmiş əraziləri öz tabeçiliyində saxlamaq üçün fatehlərin istifadə etdiyi bu metod heç də məğlub edilmiş xalqın fiziki məhvinə yönəlmiş soyqırım yox, həm də bu xalqın itaətdə saxlanması üçün onlara tətbiq edilən qorxutma üsulu idi. Məhz bunun köməyi ilə istilaçı dövlətlər müəyyən müddət ərzində tutduqları ərazidə hər hansı bir müqavimətin ortaya çıxa biləcəyindən özlərini sığortalayaraq qazandıqları qələbəni saxlaya bilirdilər. Öz mahiyyəti etibarilə fatehlərin bu hərəkəti terrorçuluqdan başqa bir şey deyildi, çünki məhz belə qorxutma və təhdid cəmiyyətin üzərində nəzarətin, onun öz iradəsinə tabe etdirilməsinin yeganə vasitəsi idi.

Yuxarıda qeyd edilən əməl dövlət hakimiyyəti tərəfindən mü-

dafiə edilən və həyata keçirilən terrorçuluğun qədim nümunəsidir. Lakin bəşər tarixinə müxtəlif sosial təbəqələrin (milli, irqi, dini, siyasi qrupların) həyata keçirdiyi və rəsmi dövlət hakimiyyətinə qarşı yönəlmiş terrorçuluğun da qədim nümunələri məlumdur. Beynəlxalq terrorçuluğun qədim tarixə malik olmasından danışarkən Roma imperiyasının istilalarından özlərini müdafiə etmək üçün qədim yəhudi tayfalarının yaratdığı “şilot şikari” müqavimət dəstələrinin fəaliyyətini misal çəkmək olar. Həmin dəstələr altmış ildən artıq bir dövrdə Roma legionlarına və imperiyanın yerli hakimiyyət strukturlarına ciddi zərbələr yetirmişdir. Terrorçuluğu özünün əsas mübarizə vasitəsi seçmiş belə qədim təşkilatlar dünyanın digər regionlarında və bəşər tarixinin başqa mərhələlərində də mövcud olmuşdur.

Lakin dövlət və ictimai xadimlər əleyhinə törədilən fərdi terror aktlarının da kifayət qədər qədim tarixi vardır. Ayrı-ayrı şəxslərin terror yolu ilə məhv edilməsi siyasi, sosial, dini, milli problemlərin, sülalədaxili intriqaların həll edilməsinin geniş yayılmış üsullarından biri olmuş və hazırda da nadir hadisə deyildir. Hətta, əksinə, son dövrlərdə istər bütövlükdə terrorçuluq faktlarına, istərsə də ayrı-ayrı terror aktlarına daha tez-tez təsadüf edilməyə başlanmışdır. Bu isə terrorçuluğun ümumbəşəri bir bəla olduğunu və Yer kürəsində heç bir dövlətin və heç bir xalqın terrorçuluqdan tam sığortalanmadığını əyani şəkildə sübut edir.

Hazırda beynəlxalq terrorçuluq havada, dənizdə, quruda, hətta yerin altında (metro nəzərdə tutulur) insanların təhlükəsizliyini təhlükə altına alır. Beynəlxalq terrorçular elmin və texnikanın son nailiyyətlərindən “müvəffəqiyyətlə” istifadə edərək ən ağılasığmaz üsullarla – nəqliyyat vasitələrinin minalanması, uzaqdan idarə olunan partlayıcı qurğuların işə salınması, müxtəlif obyektlərə açıq-aşkar basqın edilməsi, terrorçu-kamikadzelərdən istifadə edilməsi, partlayıcı və ya zəhərli maddələrin, yaxud xüsusi təhlükəli bakteriyaların (məsələn, Sibir xorasının törədicilərinin) poçtla göndərilməsi yolu ilə öz cinayətkar niyyətlərini həyata keçirirlər. Terrorçuluq aksiyaları avtobuslarda, qatarlarda, gəmilərdə, təyyarələrdə, vağzallarda, silah anbarlarında, beynəlxalq təşkilatların mənzil-qərargahlarında, dövlət idarələrində, yaşayış binalarında, ticarət mərkəzlərində, konsert salonlarında və əhalinin kütləvi şəkildə toplaşdığı başqa mədəniyyət ocaqlarında, tədris müəssisələrində, başqa dövlətlərin rəsmi nümayəndəliklərində, dini ibadət yerlərində və digər yerlərdə törədilir. Bu zaman, həmişə olduğu kimi, terrorçuların həll etmək istədiyi problemlə heç bir əlaqəsi olmayan çoxlu sayda günahsız adamlar terror qurbanına çevrilirlər.

Müasir terrorçuluğun ictimai təhlükəliliyi xeyli artmışdır, çünki terrorçular insanların kütləvi məhvinə, maddi sərvətlərin geniş miqyasda dağıdılmasına səbəb ola bilən partlayıcı maddələrdən, kimyəvi silahlardan istifadə etmək imkanına malikdirlər. Hazırda hətta terrorçuların nüvə silahı kimi kütləvi qırğın silahları əldə etmək üçün ciddi cəhdlər göstərməsi barədə faktlar mövcuddur.

Beynəlxalq terrorçuluğun yaratdığı real təhlükə dünyanın is-

tənilən guşəsində mövcud olsa da, bu təhlükənin reallıq dərəcəsi konkret regionda yaranmış ictimai-siyasi, geosiyasi, dini, irqi, etnik, mədəni, mənəvi-psixoloji şəraitlə birbaşa şərtlənmişdir. Qeyd olunan amillərin düzgün qiymətləndirilməsi yolu ilə bu və ya digər dövlət üçün terror təhlükəsinin dərəcəsi, habelə bu antihumanist əməlin mənbələri haqqında ilkin nəticələr çıxarmaq olar. Lakin terrorçuluğun ən təhlükəli cəhəti ondan ibarətdir ki, bu cinayət, bir qayda olaraq, uzunmüddətli hazırlıqdan sonra mütəşəkkil cinayətkar birliklər tərəfindən həyata keçirilir ki, bu da terrorçuluğun nəinki öncədən aşkar edilməsini, hətta onun törədildikdən sonra açılmasını xeyli dərəcədə çətinləşdirir.

Beynəlxalq terrorçuluq iyirminci yüzillikdə Azərbaycanın da tarixində öz izlərini qoymuşdur. Yüzilliyin əvvəllərində ölkəmizin ərazisində öz dəhşətinə görə tarixə düşmüş çoxlu sayda terrorçuluq aksiyaları törədilmişdir. Bunlardan ən qanlısı olan və bir neçə gün ərzində minlərlə azərbaycanlının qətlə yetirilməsi, onlarla şəhər və kəndin xarabazarlığa çevrilməsi ilə nəticələnən 1918-ci ilin mart qırğınları dini-etnik zəmində törədilmiş soyqırım faktı olmaqla bərabər həm də adi terrorçuluq aksiyası idi[1]. Öz mahiyyəti etibarilə terrorçu təşkilatlar olan daşnak-bolşevik qruplaşmaları tərəfindən törədilmiş bu qırğınlardan məqsəd sadəcə olaraq Azərbaycanın bir sıra bölgələrinin əhalisinin etnik tərkibini dəyişmək deyil, həm də azərbaycanlı əhalinin həmin dövrdə yaranmaqda olan milli dövlətçilik ideologiyasına zərbə vurmaq, insanları vahimə və qorxunun təsiri altında itaətdə saxlamaq idi. İyirminci yüzilliyin əvvəllərində Azərbaycanda bir neçə başqa terrorçuluq aksiyaları da törədilmişdir. Bu zaman qeyd etmək olar ki, əgər 1918-1920-ci illərdə terrorçu ünsürlər başlıca hədəf kimi Azərbaycan Demokratik Respublikasının əsaslarını sarsıtmağı seçmişdisə, 1920-ci ildən sonra Azərbaycan ərazisində terrorçular yeni qurulmaqda olan sovetlər sistemini hədəf seçmişdilər. Bunu 1920-ci ildən sonra qeydə alınmış terrorçuluq əməllərinin (bir neçə milliləşdirilmiş neft mədəninin və başqa sənaye obyektlərinin yandırılması və s.) qəsd etdiyi obyektlərin xarakteri də təsdiq edir.

Lakin iyirminci yüzilliyin əvvəllərində Azərbaycanı sarsıtmağa yönəlmiş beynəlxalq terrorçuluq aksiyaları təkcə ölkə ərazisində yox, həm də onun hüdudlarından kənarda törədilmişdir. Öz zərərli nəticələrinə görə ölkə ərazisində törədilmiş terrorçuluq əməllərindən daha təhlükəli olan bu cinayətlər ADR-in qurucularından olan ayrı-ayrı görkəmli ictimai-siyasi xadimlərin məhv edilməsinə yönəlmişdi. Fətəli xan Xoyski, Həsən bəy Ağayev kimi keçmiş dövlət xadimlərinin planlı surətdə qətlə yetirilməsi ilə nəticələnmiş bu cinayətlər sadəcə fərdi terror aktları deyildi, çünki terrorçu daşnak ünsürləri tərəfindən törədilən bu qətllərin başlıca məqsədi Azərbaycanın milli dövlətçilik ideyalarının daşıyıcısı olan şəxsləri məhv etmək və bununla da həmin ideyaların pərəstişkarı olan yüz min-

---

[1] Преступления армянских террористических и бандитских формирований против человечества (XIX-XXI вв.). Краткая хронологическая энциклопедия. Б., 2002. С. 62-82.

lərlə insanı qorxu və vahiməyə salmaq idi.

Azərbaycana qarşı yönəlmiş beynəlxalq terrorçuluq iyirminci yüzilliyin sonunda daha da təşkilatlanmış və amansız şəkil almışdır. Dəfələrlə olduğu kimi bu dəfə də erməni terrorçu ünsürləri tərəfindən həyata keçirilmiş həmin terrorçuluq aksiyalarının xüsusi təhlükəliliyi ondan ibarətdir ki, onların hazırlanmasına Ermənistan dövlətinin rəsmi dairələri rəhbərlik etmişdir. Müxtəlif formalarda – azərbaycanlılar yaşayan şəhər və kəndlərə açıq silahlı basqınların təşkil edilməsi, Respublikanın bir sıra yüksək vəzifəli məmurlarının uçduğu vertolyotun 20 noyabr 1991-ci ildə Dağlıq Qarabağ səmasında vurulması, Bakı metropolitenində, dəmiryol qatarlarında, sərnişin avtobuslarında partlayışlar törədilməsi yolu ilə həyata keçirilən bu terrorçuluq aksiyalarının əsas hədəfi azərbaycanlı əhalini qorxudaraq öz yaşayış məntəqələrini tərk etməyə məcbur etmək, ölkədə ictimai-siyasi sabitliyi pozmaq və ərazi bütövlüyü uğrunda mübarizədə Azərbaycanı daha əlverişsiz vəziyyətə salmaq idi. Təkcə həmin illər ərzində törədilmiş terrorçuluq aksiyalarının ölkəmizə və xalqımıza vurduğu maddi, mənəvi, psixoloji, fiziki zərəri nəzərə aldıqda beynəlxalq terrorçuluğun necə dəhşətli bir sosial bəla olduğunu söyləmək mümkündür.

Azərbaycanın beynəlxalq terrorçuluğun hədəfinə çevrilmək təhlükəsi indi də çox yüksəkdir. Bu təhlükə bir neçə amillə şərtlənmişdir.

Birincisi, Azərbaycan on beş ildən artıqdır ki, zorən cəlb edildiyi Dağlıq Qarabağ ətrafında gedən münaqişəni yaşamaqdadır və bunun nəticəsində rəsmi hakimiyyətin nəzarətinin itirildiyi geniş ərazi – işğal zonası yaranmışdır. Həmin nəzarətsiz zona beynəlxalq terrorçuluğun təlim-məşq meydanına çevrilə bilər. Əgər nəzərə alsaq ki, hal-hazırda Dağlıq Qarabağda və işğal olunmuş ərazilərdə "hakimiyyət" terrorçuluğunu özlərinin başlıca fəaliyyət proqramından biri seçmiş etnik-separatçı qüvvələrin əlindədir, onda bu ərazidə beynəlxalq terrorçuluğun çiçəklənməsi üçün münbit şərait olduğu heç bir şübhə yaratmayacaqdır. Təsadüfi deyil ki, bir sıra kütləvi informasiya vasitələrinin və nüfuzlu ictimai təşkilatların yaydığı məlumatlara əsasən, işğal altında olan ərazilərdə ASALA, PKK (KADEK) kimi terrorçu təşkilatlara aid qurumlar təşkil olunmaqda və fəaliyyət göstərməkdədir.

Azərbaycana beynəlxalq terrorçuluğun nüfuz edə bilməsi təhlükəsini şərtləndirən ikinci amil son illər siyasi durumun möhkəmləndirilməsini, iqtisadiyyatın yüksək templə inkişafını, əhalinin maddi-sosial vəziyyətinin getdikcə yaxşılaşmasını gözü götürməyən bəzi qüvvələrin destruktiv, zorakı metodlara əl ata bilməsidir. Düzdür, Azərbaycanda sosial-iqtisadi və həyati əhəmiyyətli məsələləri zorakı metodlarla həll etməyi özünə məqsəd seçmiş heç bir gizli və ya aşkar fəaliyyət göstərən təşkilat yoxdur. Lakin ölkədə hələ də belə qurumların yarana bilməsi ehtimalını, habelə fərdi qaydada terrorçuluq aksiyalarına əl ata biləcək ünsürlərin meydana gəlməsi ehtimalını saxlayır.

Azərbaycanda beynəlxalq terrorçuluğun özünü göstərməsinə imkan verə biləcək başqa bir amil ölkənin əhatəsində bir sıra məş-

hur münaqişə ocaqlarının olmasıdır. İstər Şimali Qafqazda və Gürcüstanda yaxın keçmişdə baş vermiş və indi də davam etməkdə olan münaqişələr, istərsə də Yaxın və Orta Şərqdə uzun illərdir davam edən və bir çox qanlı terrorçuluq faktları ilə tarixə düşmüş qarşıdurma Azərbaycanın da özünəməxsus təhlükə zonasında yerləşdiyini təsdiqləyir. Təcrübədən məlumdur ki, terrorçu təşkilatlar öz qüvvələrini lazımi ərazilərdə yerləşdirmək, silah əldə etmək, maliyyə və başqa maddi vəsaitləri çatdırmaq, dünyanın müxtəlif regionlarındakı başqa terrorçu təsisatlarla əlaqə saxlamaq üçün qonşu dövlətlərin ərazilərindən istifadə edirlər. Bu halda tranzit ərazi rolunu oynayan ölkədə istənilən anda terrorçuluğun baş qaldırması təhlükəsi qalır. Azərbaycanın ərazisi də öz coğrafi mövqeyinə görə terrorçular üçün belə tranzit rolunu oynaya bilər.

Azərbaycanda terrorçuluğa münbit şərait yarada biləcək daha bir amil keçmiş SSRİ-də, xüsusən də Rusiya Federasiyasında nəhəng sovet ordusunun əvvəlki strukturlarının dəyişməsi və yenidən qurulması gedişində külli miqdarda silah və sursatın cinayətkar qrupların əlinə keçməsi, habelə bir sıra müdafiə xarakterli müəssisələrin nəzarətsiz qalması ucbatından partlayıcı və başqa ictimai təhlükəli maddələrin təsadüfi əllərə düşməsidir. Düzdür, son illərdə istər Azərbaycanda, istərsə də digər MDB ölkələrində odlu silahın, döyüş sursatlarının, partlayıcı maddələrin və başqa ictimai təhlükəli maddələrin və əşyaların qanunsuz dövriyyəsi ilə mübarizə xeyli dərəcədə ciddiləşmişdir. Lakin hələ də postsovet məkanında xeyli sayda odlu silah və digər təhlükəli əşya və maddələr qanunsuz dövriyyədədir və istənilən anda terrorçuların əlinə keçə bilər.

Nəhayət, ölkəmizdə terrorçuluq təhlükəsini aktual edən daha bir ciddi amil onun çoxmillətli etnik mənşəyə malik əhali tərəfindən məskunlaşması və bir sıra xarici düşmən qüvvələrin məhz bu faktdan istifadə edərək Azərbaycanda daxili ictimai-siyasi sabitliyi pozmaq cəhdidir. Bu amilin xüsusi təhlükəliliyini anlamaq üçün xatırlamaq kifayətdir ki, son onilliklərdə ölkəmizdə baş vermiş bir neçə qanlı terrorçuluq aksiyası məhz xarici havadarları tərəfindən təhrik edilən "Sadval" təşkilatına bağlı cinayətkarlar tərəfindən törədilmişdir.

Yuxarıda qeyd edilənlərə əsasən, belə bir qənaətə gəlmək olar ki, Azərbaycan Respublikasında beynəlxalq terrorçuluğun diqqətini cəlb edə biləcək kifayət qədər mürəkkəb şərait mövcuddur. Həmin fikrin təsdiqlənməsi üçün belə bir arqument göstərmək olar ki, istər ictimai sabitliyin dayanıqlığı baxımından, istərsə də cinayətkarlıqla mübarizənin təşkili səviyyəsinə görə bütün dünyaya nümunə ola biləcək dövlətlər də (məsələn, ABŞ, Böyük Britaniya və s.) dəfələrlə terrorçuluq aksiyalarından zərər çəkmişlər. Deməli, terrorçuluq, xüsusən də onun ən təhlükəli təzahürü olan beynəlxalq terrorçuluq hər bir dövrdə daimi təhlükə yaradan sosial bəladır və onunla ən müxtəlif üsullarla planlı mübarizə aparılmalıdır.

Beynəlxalq terrorçuluğun elmi araşdırılması ən müxtəlif səviyyələrdə çoxdan aparılsa da, müxtəlif dövrlərdə bu problemə yanaşma eyni olmamışdır. İyirminci yüzilliyin 80-ci illərinin sonuna-

dək dünya miqyasında mövcud olmuş qütbləşmə beynəlxalq terrorçuluğa elmi yanaşmada da müşahidə edilmişdir. Belə ki, həmin dövrdə sovet müəlliflərinin bu mövzuya həsr edilmiş əsərlərində beynəlxalq terrorçuluq birmənalı olaraq ABŞ, Böyük Britaniya, İsrail və başqa Qərb dövlətləri ilə əlaqələndirilirdi və bu zaman SSRİ-nin və sosializm düşərgəsinə aid olan ölkələrin beynəlxalq terrorçuluqla əlaqəsi nəinki inkar edilirdi, hətta bu ölkələrin terrorçuluqla dönmədən mübarizə apardığı vurğulanırdı. Qərb ədəbiyyatında və ictimai fikrində isə, əksinə, belə bir rəy mövcud idi ki, SSRİ və onun təsiri altında olan ölkələr beynəlxalq terrorçuluğu hər cəhətdən dəstəkləyir və bir sıra strateji məsələlərin həllində beynəlxalq terrorçu qruplaşmalardan (çox vaxt elə həmin dövlətlərin özlərinin yaratdığı) istifadə edirlər. Hər iki mövqeyi təhlil edərkən belə bir qənaət hasil olurdu ki, üçüncü dövlətlərdə (məsələn, bəzi ərəb ölkələrində, Latın Amerikası ölkələrində və s.) təşəkkül tapan beynəlxalq terrorçu qruplaşmalar ya inkişaf etmiş Qərb dövlətlərinin, ya da SSRİ-nin himayəsindədir. Lakin məsələyə belə tərəfli yanaşma düzgün hesab edilə bilməzdi, çünki beynəlxalq terrorçuluğun kökünün axtarılmasında təkcə ideoloji mövqedən çıxış etmək yanlışdır.

Əlbəttə, hər hansı bir dövlətin xüsusi xidmət orqanlarının müəyyən terrorçu qruplaşmaları dəstəkləməsini və yeri gəldikcə bu qruplaşmalardan öz məqsədləri üçün istifadə etməsini inkar etmək mümkün deyildir. Lakin unutmaq olmaz ki, beynəlxalq terrorçuluq təkcə ona görə belə adlanmır ki, onu hər hansı bir dövlətin rəsmi strukturları dəstəkləyir. Başqa sözlə, heç bir dövlətdən himayə görmədən də kifayət qədər geniş şəbəkələnmiş və təhlükəli terrorçu strukturlar yarana və fəaliyyət göstərə bilər (məsələn, Yaponiyada törətdiyi bir neçə terrorçuluq aksiyası ilə məşhurlaşmış "Aum Sinrike" təşkilatı). Digər tərəfdən, hər hansı bir dövlətin müəyyən bəhanə ilə (məsələn, milli-azadlıq hərəkatının müdafiəsi adı altında) terrorçu qruplaşmaları dəstəkləməsinin heç vaxt mövcud olmadığına inanmaq da sadəlövhlük olardı. Hal-hazırda belə bir danılmaz fakt mövcuddur ki, dünyanın bir sıra dövlətləri müəyyən terrorçu qruplaşmaların fəaliyyətini özünəməxsus "nəzarətdə" saxlayırlar və onların bu fəaliyyətini əlaqələndirirlər.

Müasir dövrdə beynəlxalq terrorçuluğun bəzi ölkələrin rəsmi dövlət hakimiyyəti tərəfindən himayə edilməsi heç kimdə şübhə doğurmur. Lakin təəssüflər olsun ki, dünyanın heç bir dövlətinin rəsmi hakimiyyətinin nümayəndələri terrorçu fəaliyyətdə ittiham olunaraq ədalət mühakiməsi qarşısında dayanmamışdır. Hazırda yalnız bir neçə konkret dövlətin rəsmi hakimiyyət dairələrinin beynəlxalq terrorçu qruplaşmalarla əlaqələrdə şübhələnilməsinə dair bəzi dövlətlərin hamı tərəfindən qəbul edilməyən mülahizələri mövcuddur. Bu sırada, sözsüz ki, başlıca olaraq ABŞ-ın rəsmi hakimiyyət orqanları tərəfindən tərtib edilmiş "qara siyahı"ya daxil edilmiş dövlətləri (Əfqanıstan, İraq, İran, KXDR, Liviya və s.) göstərmək olar. Lakin bu dövlətlərin müxtəlif beynəlxalq terrorçu qruplaşmalarla əlaqələri haqqında mülahizələri dünyanın çox az sayda dövlətləri birmənalı olaraq qəbul edir. Hətta 2001-ci il sentyabrın 11-də

ABŞ-a qarşı törədilmiş və bütün dünyanı sarsıtmış terrorçuluq aksiyalarından sonra dünyanın bu superdövlətinin yaratdığı antiterror koalisiyası və ABŞ silahlı qüvvələrinin əvvəl Əfqanıstanda, sonra isə İraqda həyata keçirdiyi irimiqyaslı əməliyyatlar da bu dövlətlərin beynəlxalq terrorçuluqla əlaqəsini inandırıcı surətdə təsdiq edən faktları ortaya çıxara bilməmişdir. Başqa sözlə, beynəlxalq terrorçuluğun ayrı-ayrı dövlətlərin hakimiyyət strukturları tərəfindən dəstəklənməsi faktının açılma dərəcəsinin praktiki olaraq sıfra bərabər olması beynəlxalq terrorçuların və onların havadarlarının uzun illər cəzalandırılmadan fəaliyyət göstərməsinə və öz cinayətkar niyyətlərini daha amansız metodlarla və daha təhlükəli üsullarla (kimyəvi və bakterioloji silahlardan, güclü təsirə malik partlayıcı maddələrdən istifadə etməklə) həyata keçirməsinə şərait yaradır.

## ƏDƏBİYYAT


1. Комиссаров В. Захват заложников: происхождение нормы, вопросы совершенствования // Законность. 1995. № 3.
2. Киреев М.П. Борьба с терроризмом на воздушном транспорте. Учебное пособие. М., 1992.
3. Демиденко В.В., Прус В.М., Шемякин А.Н. Пиратство, терроризм, мошенничество на море (правовые аспекты). 2-ое издание. Одесса, 1997.
4. Ляхов Е.Г. Проблемы сотрудничества государств в борьбе с международным терроризмом. М., 1979.
5. Коробеев А.И. Транспортные правонарушения: квалификация и ответственность, М., 1990.
6. Панов В.П. Международное уголовное право. Учебное пособие. М., 1997.


## ИССЛЕДОВАНИЕ СПОРНЫХ ВОПРОСОВ ТЕРРОРИЗМА В МЕЖДУНАРОДНОМ АСПЕКТЕ


**М.Н.ИМАНЛЫ**



## РЕЗЮМЕ

В данной статье указывается, что международный терроризм это проблема не последних лет, а проблема, история которой измеряется тысячелетиями. В империях, которые существовали в прошлом, и территориях, входящих в их состав со стороны центрального правительства по отношению к своим представительствам также совершались акты терроризма.

В статье описываются многочисленные террористические акты, оцениваемые как международные, совершенные армянами по отношению к азербайджанскому народу в 1918-1920 годах. В республике возникли большие опасения относительно возможности возникновения террористических организаций. В статье освещаются вопросы поддержки некоторыми государствами международных террористических организаций, а также спорные моменты этой проблемы. Акцентируется внимание на возможности победить международный терроризм путем объединения государств.